Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi

7 Fevral 2024-cü il Növbədənkənar Prezident seçkisinin seçkiqabağı təşviqat mərhələsi üzrə müşahidələrə dair

# ARALIQ HESABAT

Bakı - 2 fevral 2024-cü il

## I. Xülasə

Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi (SMDT) Azərbaycanda azad və ədalətli seçkilərin keçirilməsi, mülki və siyasi azadlıqların müdafiəsi, vətəndaş cəmiyyəti və demokratik institutların inkişafı sahəsində çalışan qeyri-hökumət təşkilatıdır.

7 Fevral 2024-cü ilə təyin edilən növbədənkənar prezident seçkisinin ilkin mərhələsi – namizədlərin irəli sürülməsi və qeydiyyatı, o cümlədən seçkiqabağı təşviqat üzrə SMDT-nin apardığı müşahidələr rəsmi xəbərələrə və sənədlərə, açıq mənbələr və qeydiyyatdan keçmiş müşahidəçilərdən toplanan məlumatlara əsaslanır.

SMDT hesab edir ki, prezident seçkisinin vaxtından 14 ay öncəyə - 7 fevral 2024-cü ilə təyin edilməsi seçki prosesində bütün maraqlı tərəflərin, o cümlədən siyasi partiyalar və prezidentliyə namizədlik iddiasında olan şəxslərin iştirakını, vətəndaş cəmiyyəti qurumları və beynəlxalq seçki müşahidə təşkilatlarının bu prosesə fəal şəkildə cəlb olunmasını çətinləşdirib.

SMDT qeyd edir ki, 7 fevral növbədənkənar prezident seçkisi sonuncu parlament seçkisindən 3 il sonraya təsadüf etsə də, ötən müddətdə seçki qanunvericiliyi və seçki təcrübəsinin təkmilləşdirilməsi barədə yerli və beynəlxalq müşahidəçilər, o cümlədən ATƏT-in Demokratik təsisatlar və İnsan Hüquqları Bürosunun əvvəlki tövsiyyələrini öyrənmək və icra etmək üçün Azərbaycan hakimiyyəti siyasi iradə nümayiş etdirməyib.
SMDT təəssüflə bildirir ki, 7 fevral 2024-cü il növbədənkənar seçkisi ərəfəsində ölkədə siyasi azadlıqların müdafiəsi yönündə böhran dərinləşib, ifadə azadlığı, sərbəst toplaşmaq və birləşmək azadlıqlarına məhdudiyyətlər aradan qalxmayıb, siyasi motivli həbslərin sayı daha da artıb. Bununla yanaşı seçki öncəsi siyasi partiyaların sayı iki dəfə azalıb, müstəqil vətəndaş cəmiyyəti qurumları və müstəqil medianın fəaliyyətinə qadağalar, habelə jurnalistlər və ictimai fəallara qarşı təqiblər çoxalıb. Nəticədə vətəndaş cəmiyyəti qurumları və siyasi partiyaların 7 fevral növbədənkənar prezident seçkisində fəal iştirakı üçün əlverişli demokratik mühit olmayıb.

Seçkiqabağı təşviqat dövründə prezidentliyə namizədlərin seçkiqabağı təşviqat kampaniyası qarşıduran siyasi qüvvələrin həqiqi rəqabətinə çevrilməyib, seçicilərə fərqli siyasi baxışlar arasından alternativ seçim imkanları yaranmayıb. Bununla da, azad və ədalətli seçkinin başlıca şərti olan siyasi alternativlik mühiti təmin edilməyib.

SMDT 7 fevral 2024-cü il prezident seçkisinin növbəti mərhələsi – səsvermə və səslərin sayılması prosesinin hüquqi normalara uyğun təşkilini vacib sayır, icra strukturları və digər dövlət qurumların seçki prosesinə müdaxiləsinə yol verməmək, seçki komissiyalarının müstəqil fəaliyyətinə təminat üçün Azərbaycan hakimiyyətini siyasi iradə nümayiş etdirməyə çağırır.

## II. Giriş

Bu hesabat Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin (SMDT) 7 Fevral 2024-cü il növbədənkənar prezident seçkisi üzrə uzunmüddətli müşahidələrinin nəticələri əsasında hazırlanıb.
SMDT Azərbaycanda azad və ədalətli seçkilərin keçirilməsi, mülki və siyasi azadlıqların müdafiəsi, vətəndaş cəmiyyəti və demokratik institutların inkişafı sahəsində çalışan qeyri-hökumət təşkilatıdır.

SMDT 1 dekabr 2008-ci ildə qeydiyyatı ləğv edilmiş Seçki Monitorinq Mərkəzinin (SMM) təsisçiləri tərəfindən yenidən təsis olunub. Xatırladaq ki, 14 may 2008-ci ildə SMM-in qeydiyyatı Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin əsassız iddiası əsasında Xətai Rayon Məhkəməsi tərəfindən ləğv edilib. Bundan sonra SMM-in hədəf və məqsədləri yönündə SMDT fəaliyyətini davam etdirib və dövlət qeydiyyatına alınmaq üçün 2009-cu ildə Ədliyyə Nazirliyinə müarciət edib. Ancaq Ədliyyə Nazirliyi SMDT-nin müraciətini təmin etmədiyi üçün məhkəməyə müraciət olunub. Azərbaycan məhkəmə orqanları həm SMM-in, həm də SMDT-nin dövlət qeydiyyatı ilə bağlı müraciətini təmin etmədiyi üçün Avropa İnsan Hüquqları Məhkəməsinə (AİHM) müraciət olunub. AİHM 2 dekabr 2021-ci ildə SMM-in ərizəsi [1], 12 yanvar 2023-cü ildə isə SMDT-nin ərizəsi [2] əsasında dövlət qeydiyyatına alınmaması ilə bağlı qərarlarını açıqlayaraq, bu halları Avropa Konvensiyasının 11-ci maddəsi (birləşmək və toplaşmaq azadlığının) pozulması kimi qiymətləndirib. Ancaq ötən müddətdə Azərbaycan Ali Məhkəməsi AİHM-in bu iki qərarının icrası və SMDT-nin dövlət qeydiyyatına alınması ilə bağlı zəruri hüquqi tədbirlər həyata keçirməyib.

SMDT (keçmiş SMM) 2001-ci ildən Azərbaycanda keçirilən 15 seçkinin monitorinqini həyata keçirib. Seçkilərin monitorinqi ilə bağlı SMDT indiyədək 14000 nəfərdən artıq vətəndaşa 600-dən çox təlim keçib və onların seçki komissiyalarında akkreditə olunmalarına hüquqi-texniki yardım göstərib.

Qeyd edək ki, SMDT əsassız səbəblərdən Ədliyyə nazirliyində dövlət qeydiyyatına alınmadığı üçün MSK-ya akkreditasiya üçün müraciət edə bilmir. Bu baxımdan SMDT ənənəvi olaraq seçki komissiyalarında qeydiyyatdan keçmiş müstəqil müşahidəçilərlə əməkdaşlıq edir.

SMDT ATƏT-ə üzv olan ölkələrin vətəndaş cəmiyyəti təşkilatlarını birləşdirən Seçkilərin Monitorinqi Təşkilatlarının Avropa Şəbəkəsi (ENEMO), Şərq Tərəfdaşlıq ölkələrinin Vətəndaş Cəmiyyəti Forumu, Demokratik Seçkilər üzrə Avropa Platformasının (EPDE) və Yerli Seçki Müşahidəçilərinin Qlobal Şəbəkəsinin üzvüdür. SMDT seçkilərin müşahidəsi sahəsində Yerli Seçki Müşahidə Təşkilatlarının Qlobal Bəyannaməsinin [3] prinsipləri əsasında fəaliyyət göstərir.

[1] Bax: Case of of Election Monitoring Centre and others v. Azerbaijan (Application no. 64733/09)
[2] Bax: Case of of Election Monitoring and Democracy Education Centre and others v. Azerbaijan (Application no. 70981/11)
[3] Yerli Seçki MüşahidəTəşkilatlarının Qlobal Bəyannaməsi, https://gndem.org/declaration-of-global-principles/

## III. Seçkiqabağı hüquqi-siyasi mühit

### *a) Seçkinin təyin olunması*

7 dekabr 2023-cü ildə Azərbaycan prezidenti İlham Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin I hissəsi və Seçki Məcəlləsinin 179-cu maddəsinə uyğun olaraq ölkədə növbədənkənar prezident seçkisinin keçirilməsi barədə sərəncam imzalayıb[4]. Xatırladaq ki, növbədənkənar seçkinin təyin edilməsi hüququ milli qanunvericliyə 26 sentyabr 2016-cı ildə keçirilmiş referendumdan sonra gətirilib və həmin referenduma çıxarılan düzəlişlərlə bağlı Avropa Şurası Venesiya Komissiyasının rəyində dəyişikliklərin motivlərinin aydın olmadığı, referendum aktının müzakirəsinə parlamentin cəlb edilməməsi və konstitusion düzəlişlərin qüvvəyə minməsi qaydası ilə bağlı tənzimləmənin olmaması tənqid edilib[5].

SMDT növbədənkənar prezident seçkisinin təyin edilməsi ilə bağlı bəyanatında qeyd edib ki, növbədənkənar prezident seçkisinin keçirilməsi barədə sərəncam tutarlı siyasi ehtiyaclar göstərilmədən və cəmiyyətdə açıq ictimai müzakirələr aparılmadan verildiyindən seçki prosesində bütün maraqlı tərəflərin, o cümlədən siyasi partiyalar və prezidentliyə namizədlik iddiasında olan şəxslərin iştirakını, vətəndaş cəmiyyəti qurumları və beynəlxalq seçki müşahidə təşkilatlarının hazırlığını çətinləşdirib[6].

### *b) Seçkiqabağı hüquqi mühit*

2020-ci ildə keçirilmiş sonuncu paralment seçkilərindən sonra Seçki Məcəlləsinin təkmilləşməsi yönündə hüquqi təşəbbüslər üçün nə parlament hakimiyyəti, nə də mərkəzi icra hakimiyyəti siyasi iradə nümayiş etdirməyib. Əksinə media və siyasi partiyalarla bağlı milli qanunvericliyə gətirilən yeni məhdudlaşdırıcı hüquqi normalar ölkədə ifadə azadlığı və birləşmək azadlığı hüququna təminatla yanaşı seçki prosesinə də mənfi təsir edib.

2022-ci ilin fevralında qüvvəyə minən "Media haqqında" qanun media və jurnalistlərin vahid reyestrinin yaradılmasını nəzərdə tutur və media qurumlarının fəaliyyətini tənzimləyən bir sıra yeni müddəalar nəzərdə tutur. Müstəqil jurnalistlər bu qanunun qəbulunu ölkədə azad medianın nəzarətə alınması cəhdi hesab ediblər. Qanunla bağlı ekspert rəyi açıqlayan Avropa Şurası Venesiya Komissiyası bildirib ki, müstəqil jurnalistika və media üçün onsuz da məhdud məkana malik Azərbaycanda bu normativ akt daha bir "soyuducu təsir" yaradacaq[7]. Venesiya Komissiyası həmçinin bu qanunun ifadə azadlığı ilə bağlı Avropa standartlarına uyğun gəlmədiyini ifadə edib. Qeyd edək ki, bu qanunun qəbulu nəticəsində əvvəlki seçkilərdən fərqli olaraq, bütün jurnalistlərə növbədənkənar prezident seçkisini işıqlandırmaq mümükn olmayacaq. Yalnız media reyestrində olan jurnalistlərin seçki günü səsvermə prosesini izləmək imkanı olacaq.

---

[4] Sərəncamın mətni - https://president.az/az/articles/view/62417
[5] Avropa Şurası Venesiya Komissiyasının rəyi - http://www.venice.coe.int/webforms/documents/?pdf=CDL-AD(2016)029-e
[6] SMDT Bəyanat, 12 dekabr 2023-cü il - https://smdtaz.org/wp-content/uploads/2023/12/SMDT-b%C9%99yanat-12122023.pdf
[7] Draft Joint Opinion on the Law on Media: https://www.venice.coe.int/webforms/documents/?pdf=CDL(2022)017-e

2023-cü ilin yanvarında "Siyasi partiyalar haqqında" yeni qanunun qüvvəyə minməsindən sonrakı 6 ay ərzində Azərbaycanda fəaliyyət göstərən 58 siyasi partiyadan 29 partiya fəaliyyətini dayandırıb. Bəzi partiyalar bunu yeni qanunun yaratdığı məhdudlaşdırıcı hallarla izah ediblər. Qeyd edək ki, yeni qanunda partiyanın qeydiyyatı üçün tələb edilən üzv sayı 5 min nəfərə qaldırılıb. Qanuna görə, dövlət qeydiyyatına alınmış siyasi partiyada üzv sayı 4 min 500-dən aşağı olduqda hüquqi statusu məhkəmə qərarı əsasında ləğv edilə bilər[8].

ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu ilə Avropa Şurası Venesiya Komissiyasının Siyasi partiyalar haqqında qanunla bağlı birgə rəyində qeyd edib ki, yeni qaydalar həm beynəlxalq insan hüquqları sənədlərində, həm də milli Konstitusiyada təsbit olunmuş birləşmək azadlığı hüququnun təmin olunması ilə bağlı ciddi narahatlıqlar yaradır[9].

### c) *Seçkiqabağı siyasi motivli həbslər*

Seçki öncəsi hüquq müdafiə təşkilatlarının yaydığı hesabata görə, ölkədə 200-dən artıq şəxs siyasi motivlərlə həbsdədi[10]. SMDT-nin həmçinin açıq mənbələr hesabına toladığı məlumatlara görə 2023-cü ildə 85 nəfər siyasi motivlərlə cinayət məsuliyyətinə cəlb edilib və barələrində həbs qəti-imkan tədbiri seçilib[11]. Bununla yanaşı 2023-cü il ərzində siyasi motivlərlə inzibati qaydada həbs olunanalar sayı 39 nəfər olub[12].
Qeyd edək ki, 2023-cü ildə müxtəlif ittihamlarla həbs edilən şəxslər arasında Azərbaycan Demokratiya və Rifah Partiyasının sədri, tanınmış iqtisadçı alim Qubad İbadoğlu və Demokratik Qüvvələrin Milli Şurasının üzvü, keçmiş siyasi məhbus Tofiq Yaqublu da var. Bəzi müşahidəçilərə görə Qubad İbadoğlunun həbsi onun növbədənkənar prezident seçkisində müxalif siyasi qüvvələri təmsilçisi kimi iştirakdan məhrum qoyub.

Seçki öncəsi total siyasi və hüquqi təzyiqə "Abzas Media" və Kanal13 TV yeni onlayn media platformalarının əməkdaşları məruz qalıblar.
Noyabrın 20-dən etibarən Abzas Media-nın əməkdaşlarına qarşı həbslər başlayıb. Təxminən bir ay davam edən həbs dalğası zamanı Abzas Media-nın direktoru Ülvi Həsənli, baş redaktoru Sevinc Vaqifqızı, direktor müavini Məhəmməd Kekalov, bu media platforması ilə əməkdaşlıq edən jurnalistlər - Nərgiz Absalamova, Elnarə Qasımova və Hafiz Babalı həbs ediliblər. Onlara qarşı əsasən Cinayət Məcəlləsinin 206.3.2-ci (qaçaqmalçılıq, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə cinayət işi başlanıb.

Kanal13 internet televiziyasının rəhbəri Əziz Orucov noyabrın 28-də həbs edilib. Ona qarşı Cinayət Məcəlləsinin 188.2-ci (torpaq üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu pozma) maddəsi ilə ittiham irəli sürülüb. Yanvarın 18-də German Marşal Fondunun ölkə koordinatoru Mehriban Rəhimli Kanal13 TV rəhbəri Əziz Orucova qarşı cinayət işi ilə bağlı onun şəxsi bank hesablarına həbs qoyulduğunu bildirib.

---

[8] Siyasi partiyalar haqqında qanun, https://e-qanun.az/framework/53163
[9] Joint opinion of the Venice Commission and the OSCE/ODIHR on the Law on political parties, https://www.venice.coe.int/webforms/documents/?pdf=CDL-AD(2023)007-e
[10] Siyasi məhbusların yeni siyahısında 254 nəfər var, Amerikanın səsi, 1 dekabr 2023, https://www.amerikaninsesi.org/a/7380030.html
[11] SMDT, Siyasi motivli həbslərə dair İllik Fakt-Xülasə - https://smdtaz.org/wp-content/uploads/2024/01/fakt-xulas%C9%99-2023.pdf
[12] Bax orada

Azərbaycanda siyasi motivli həbslərlə bağlığı olan Avropa Şurası Nazirlər Komitəsinin nəzarətindəki Məmmədli qrupu işləri üzrə 2020-ci ildən bəri hər hansı müsbət addım atılmayıb. Xatırladaq ki, bu Məmmədli qrupuna daxil olan işlər Azərbaycanda 2013-2016-cı illərdə vətəndaş cəmiyyəti fəallarının, jurnalist və hüquq müdafiəçilərinin fəaliyyətilərinə və hökumətə qarşı tənqidi mövqelərinə görə siyasi təqiblərə və həbslərə məruz qalması ilə bağlıdır. Bu qrupda Anar Məmmədli, İntiqam Əliyev, Xədicə İsmayılova, Qiyas İbrahimov və Bayram Məmmədov, Arif və Leyla Yunusların işləri yer alır[13].

Avropa İnsan Hüquqları Konvensiyanın 18-ci maddəsinin pozuntusunun tanındığı bu qrup işi ilə bağlı AŞ Nazirlər Komitəsi hökumətin cinayət qanunvericiliyindən sui-istifadə yolu ilə öz tənqidçilərini, vətəndaş cəmiyyəti fəallarını, jurnalist və hüquq müdafiəçilərini təqib və həbslərə məruz qoyduğunu dəfələrlə bəyan edərək, Azərbaycan Ali Məhkəməsinin bu qrup üzrə ərizəçilərin hamısının məhkumluqlarının ləğv etməsini, siyasi motivli həbslərə qarşı ardıcıl milli məhkəmə təcrübəsinin yaradılması üçün məhkəmələrin müstəqiliyini tələb edir.

***d) Vətəndaş cəmiyyətinin durumu***

2013-2014-cü illərdə QHT-lər və Qrant haqqında qanunlara mürtəce müddəaların əlavə edilməsi nəticəsində vətəndaş cəmiyyəti təşkilatlarının (VCT) fəaliyyətinə yaranan məhdudiyyətlər aradan qalxmayıb. Adıçəkilən qanunların məhdudlaşdırıcı xarakteri həm VCT-lərin yaranması, həm müstəqil qaydada fəaliyyəti, həm də ictimai təşəbbüslərinin milli və xarici donorlar vasitəsilə maliyyələşməsini çətinləşdirib.

Hüquqi normalarla yanaşı 2013-cü ildən başlayaraq, vətəndaş cəmiyyəti fəallarına qarşı aparılan siyasi repressiyalar və qarayaxma kampaniyası ölkədə müstəqil vətəndaş qruplarının sıradan çıxması, hökumətin siyasi nəzarətinə keçməsi, institutsional bacarıqlarının itirilməsi və mühacirətə getməsi ilə müşayiət olunub.

Növbədənkənar prezident seçkisi öncəsi Caspian Platforumun təsisçisi Bəxtiyar Hacıyevin[14], İşçi Masası Həmkarlar İttifaqları Konfederasiyasının üzvləri Afiəddin Məmmədov[15], Elvin Mustafayev[16] və Ayxan İsrafilovun[17] həbsləri son illər vətəndaş cəmiyyəti fəallarına qarşı aparılan siyasi repressiyaların tərkib hissəsi kimi qəbul edilir. Məsələn, dekabrın 24-də ictimai fəal Araz Əliyev saxlanılıb və 25 sutka müddətinə inzibati qaydada həbsə məruz qalıb. O, azadlığa çıxdıqdan sonra polis idarəsində yeni yaradılan Üçüncü Respublika Platformasının həmtəsisçisi kimi bu qurumun məqsədi və fəaliyyəti barədə sorğulandığını bildirib[18].

Vətəndaş cəmiyyətinə total siyasi nəzarət tədbirləri nəticəsində bölgələrdə və Bakıda açıq ictimai müzakirələr keçirmək məhdudlaşdırılıb. Yalnız hökumətyönlü QHT-lər və ictimai

---

[13] Mammadli Group cases v Azerbaijan - https://shorturl.at/botKQ
[14] Daha ətraflı - https://www.bbc.com/azeri/azerbaijan-63947666
[15] Daha ətraflı - https://turan.az/az/cemiyyet/isci-masasi-hemkarlar-ittifaqlari-konfederasiyasinin-sedri-afieddin-memmedov-768135
[16] Daha ətraflı - https://turan.az/az/siyaset/mehkeme-hemkarlar-ittifaqi-fealini-3-il-azadliqdan-mehrumetme-cezasina-mehkum-edib
[17] Daha ətraflı - https://turan.az/az/cemiyyet/ayxan-israfilov-hebs-edilib-yenilenib-768346
[18] Daha ətraflı - https://www.amerikaninsesi.org/a/7444096.html

qruplara bölgələrdə və Bakıda sərbəst fəaliyyət imkanları yaradılaraq bununla da, müstəqil VCT-lərə qarşı siyasi ayrı-seçkilik sistemli şəkildə davam etdirilib.

## IV. Namizədlərin qeydiyyatı mərhələsinin nəticələri

7 dekabr 2023-cü ildə növbədənkənar prezident seçkisi elan olunduqdan sonra Mərkəzi Seçki Komissiyasında prezidentliyə namizədlərin irəli sürülməsi ilə bağlı müraciətlərin qəbul olunması prosesinə başlayıb.

Seçki Məcəlləsinə görə, prezidentliyə namizədliyin müdafiəsi üçün ən azı 40 min seçici imzası toplanmalıdır. Seçici imzaları 60-dan az olmayan seçki dairələrinin ərazisində ən azı 50 seçici imzası olmaqla toplanmalıdır.

MSK-nın rəsmi internet səhifəsində yayılan məlumata görə, prezidentliyə namizədlik üçün 17 nəfər müraciət edib və onların hamısı namizədliyin müdafiəsi üçün imza vərəqləri ilə təmin olunublar[19].

Yeni Azərbaycan Partiyası hazırkı ölkə başçısı İlham Əliyevin namizədliyini irəli sürərək, onun beşinci dəfə ölkəyə rəhbərlik etməsini müdafiə etdiyini açıqlayıb. YAP ilə yanaşı bəzi siyasi partiyalar prezident seçkisində İlham Əliyevin namizədliyini müdafiə etdiklərini, bu baxımdan namizəd irəli sürmədiklərini bəyan ediblər[20].

Müxalif siyasi partiyalardan Müsavat və Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) seçkilərdə iştirak etməmək barədə qərar qəbul ediblər. Hər iki partiyanın açıqlamasında qeyd edilir ki, hazırkı repressiya, kütləvi həbslər və qorxu mühitində ölkədə azad və ədalətli seçkilərin keçirilməsi mümkün deyil.

MSK-nın rəsmi məlumatına əsasən prezidentliyə namizədlik üçün imza vərəqi götürən 17 iddiaçıdan 10 nəfər imza vərqələrini geri qaytarmayıb. Ancaq bu siyahıya daxil olan 3 şəxs – Mətləb Mütəllimli, Namizəd Səfərov və Sərvan Kərimov MSK-ya birgə müraciətində bildiriblər ki, prezidentliyə namizədlik üçün müraciətləri vaxtında qəbul edilməyib və onların müraciətləri qanunla müəyyən olunmuş müddətdə, yəni 5 gün ərzində baxılmadığından onların imza vərqələrini qanunla müəyyən edimiş müddətdə doldurmaq imkanları olmayıb. Bununla yanaşı bildiriblər ki, onlara imza vermiş şəxslər, hakimiyyət orqanları tərəfindən çağrılaraq hədə-qorxulara məruz qoyulmuşlar.

| Sayı | Prezidentliyə namizəd | Qeydə alınma tarixi |
|---|---|---|
| 1 | Əliyev İlham Heydər oğlu | 30.12.23 |
| 2 | Oruc Zahid Məhərrəm oğlu | 06.01.24 |
| 3 | Nurullayev Razi Qulaməli oğlu | 06.01.24 |
| 4 | Mustafa Fazil Qəzənfər oğlu | 09.01.24 |
| 5 | Həsənquliyev Qüdrət Müzəffər oğlu | 09.01.24 |
| 6 | Əliyev Fuad Ağasi oğlu | 09.01.24 |
| 7 | Musayev Elşad Nəbi oğlu | 09.01.24 |

[19] Seçkilər İnformasiya Mərkəzinin məlumatı, https://www.msk.gov.az/az/elections/view/1193
[20] Bax - https://report.az/daxili-siyaset/azerbaycanda-bir-sira-siyasi-partiyalar-ilham-eliyevin-prezidentliye-namizedliyini-destekleyibler/

Qeyd edək ki, qeydə alınmış namizədlərdən yalnız biri – Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev prezident seçkisində ilk dəfə iştirak edir. Digər namizədlər bundan öncə keçirilən przeident seçksində dəfələrlə iştirak ediblər. Məsələn, YAP sədri İlham Əliyevlə yanaşı Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev beşinci dəfə president seçkisində namizəd kimi iştirak edir. Maraqlıdır ki, Qüdrət Həsənquliyevlə yanaşı digər 4 namizəd - Zahid Oruc, Fazil Mustafa, Fuad Əliyev və Razi Nurullayev 2003- 2018-ci illərdə keçirilən prezident seçkilərində hazırkı ölkə başçısı İlham Əliyevlə müqayisədə cüzi seçici səsləri toplayıblar[21]. Bununla belə, həmin seçkilərin nəticələrini mübahisələndirməmiş, əskinə seçkilər arası dövrdə hakimiyyətə loyal siyasi münasibətləri ilə fərqləniblər. Bu baxımdan 7 fevral 2024-cü il növbədənkənar prezident seçkisində bu şəxslərin prezidentliyə namizədliyi seçkiqabağı təşviqat mərhələsinin siyasi rəqabət mühitdə keçəcəyinə şübhə yaranıb.

## V. Seçkiqabağı təşviqat kampaniyası üzrə müşahidələr

Seçki Məcəlləsinə əsasən seçkiqabağı təşviqat səsvermə gününə 23 gün qalmış başlayır və səsvermənin başlamasına 24 saat qalmış dayandırılmaqla ümumilikdə 22 gün davam edir.
7 fevral 2024-cü il növbədənkənar prezident seçksində seçkiqabağı təşviqat rəsmi olaraq 15 yanvarda başlayaraq, fevralın 6-də başa çatır.
Qanuna əsasən seçkiqabağı təşviqat kütləvi informasiya vasitələri ilə, kütləvi tədbirlərin (yığıncaqlar və vətəndaşlarla görüşlər, kütləvi müzakirələr, söhbətlər və s.) keçirilməsi, çap olunmuş, audiovizual və digər təşviqat materiallarının buraxılması və yayılması yolu ilə və qanunla qadağan edilməyən digər üsullarla aparıla bilər[22].

### a) *Dövlət Televizya və radioda seçkiqabağı təşviqatın təşkili*

MSK-nın apardığı püşkatma əsasında İctimai Televizya və Radio Yayımları Şirkətində prezidentliyə namizədlər üçün ödənişsiz efir vaxtının yayım cədvəli müəyyənləşib. Bu cədvələ əsasən namizədlər televiziyada və radioda Dəyirmi Masa formatında həftədə 3 dəfə olmaqla efirdən istifadə ediblər. Ümumilikdə, 10 dəfə olmaqla hər dəfə namizədlərə 8 dəqiqə 57 saniyə həm televizayada, həm də radioda efir vaxtı ayrılıb.

Hazırkı ölkə başçısı İlham Əliyev istisna olmaqla, digər namizədlər ödənişsiz efir zamanı Dəyirmi Masada iştirak edərək, çıxışlar ediblər. Seçkiqabağı təşviqat dövründə İlham Əliyevdən başqa, digər namizədlərin ənənəvi telekanallarda çıxışları və görünütlərinə az rast gəlinib.

İTV-nin təşkil etdiyi Dəyirmi Masa görüşləri birqayda olaraq öncədən razılaşdırılmış mövzular əsasında keçirilib.

[21] bu şəxslərin topladığı seçici səsərinin cəmi 618000 olub
[22] Azərbaycan Respublikası Seçki Məcələsi, Maddə 74

SMDT-nin İTV-də təşkil olunan 6 telemüzakirə üzrə apardığı müşahidələr göstərir ki, hazırkı ölkə başçısını digər 6 namizədin heç biri tənqid etməyə, onun həqiqi opponenti görüntüsü yaratmağa və siyasi hakimiyyətə iddialı alternativ siyasi qüvvənin təmsilçisi kimi davranmağa çalışmayıb[23]. Bununla da, TV müzakirələr vasitəsilə seçicilərin fərqli siyasi baxışları və proqramları fərqləndirmək imkanı yaranmayıb.

b) ***Sosial mediada seçkiqabağı təşviqatın təşkili***

Əvvəlki illərdən fərqli olaraq, 7 fevral 2024-cü il prezident seçkisində namizədələrə sosial media platfromalarında öz təbliğat kampaniyasını qurmaq imkanı artsa da, az sayda namizəd bu platformalarda fəallıq göstərib.
Prezidentliyə namizədlərdən İlham Əliyev və Razi Nurullayevin görüşləri, çıxışları və açıqlamaları ölkədə xeyli istifadəçisi olan Facebook, Tvitter və Instagram platformalarında geniş şəkildə yayılıb[24]. Digər namizədlərdən Qüdrət Həsənquliyev və Fuad Əliyev seçkiqabağı təşviqat dövründə sosial media hesablarından istifadə etməyib.

c) ***Kütləvi tədbirlər və seçicilərlə görüşlər***

MSK seçkiqabağı təşviqat üçün görüş yerlərinin siyahısını açıqlayıb. Bu siyahıya əsasən namizədlərin seçicilərlə görüş yerləri 139 açıq və 142 qapalı olmaqla ümumilikdə 281 yerdən ibarətdir[25].
SMDT ilə əməkdaşlqı edən müşahidəçilər 27 seçki dairəsində seçkiqabağı təşviqat üçün ayrılmış əksər yerlərin seçicilərlə görüşlər üçün əsasən əlverişli olduğunu müəyyən ediblər. Ancaq bəzi açıq məkanlarda görüş yerlərinin yaşayış məntəqələrindən uzaq məsafədə olduğunu qeyd ediblər.

Seçkiqabağı təşviqat dövründə müşahidəçilər 8 seçki dairəsi hüdudlarında bəzi prezidentliyə naimizədlərlə seçicilərin görüşlərinin təşkilinə yerli icra hakimiyyəti strukturlarının cəlb olunduğunu qeydə alıblar.
Məsələn, yanvarın 18-də 23 saylı Nəsimi – Səbail seçki dairəsi ərazisində prezidentliyə namizəd Fuad Əliyevin Bakı Asiya Universitetində təşkil olunan görüşünə Nəsimi rayon icra struktur təmsilçiləri və bu universitetin tələbələrinin gətirildiyi müşahidə olunub.

Yanvarın 17-də 81 saylı İmişli seçki dairəsində prezidentliyə namizəd Razi Nurullayevin seçicilərlə görüşünə adıçəkilən rayonunun dövlət qurumlarında çalışan işçilərin gətirildiyi qeydə alınıb.
Yanvarın 11-də Sumqayıtda prezidentliyə namizəd Qüdrət Həsənquliyevlə görüşdə əsasən yerli icra strukturlarının təşkilatçılığı ilə məktəb müəllimləri, valideynlər və Sumqayıt dövlət universitetinin tələbə heyəti cəlb edilib.
Yanvarın 16-da Sumqayıtda prezidentliyə namizəd Qüdrət Həsənquliyev, yanvarın 17-də isə prezidentliyə namizəd Fazil Mustafanın seçicilərlə görüşlərində iştirak etmiş şəxslər

[23] SMDT-nin TV debatlar üzrə müşahdiələrinin nəticələrinə dair infoqrafik məlumatlar bu hesabata əlavə olunub
[24] Namizədlərin sosial media hesabları üzrə monitorinqin nəticələri bu hesabata əlavə olunub.
[25] Seçkilər İnformasiya Mərkəzi, MSK - https://www.msk.gov.az/az/elections/view/1250

müşahidəçilərə bildiriblər ki, hər iki namizədin görüşünə yerli icra strukturlarının təkidi ilə iştirak ediblər.

Ümumilikdə, bu mərhələdə namizədlərin seçicilərlə kütləvi görüşlərin keçrilməsi üçün açıq məkanlardan geniş istifadə olunmayıb. Namizədlərdən heç biri çoxminli mitinqlər və ya kütləvi görüşlər təşkil etməyib. Bununla da, seçkiqabağı təşviqat ölkə miqyasında sönük qaydada keçərək siyasi canlanmaya səbəb olmayıb.

d) **Çap materialları vasitəsilə təşviqatın aparılması**

Namizədlər çap materiallarının yayılmasını əsasən iki formada təmin etməyə çalışıblar. Plakatlar üçün ayrılmış yerlərin siyahısı DSK-lar tərəfindən müəyyən edilib və hər bir seçki məntəqəsi ərazisində bir lövhə müəyyən edilib.
SMDT ilə əməkdaşlıq edən müşahidəçilər seçkiqabağı təşviqat dövründə 6 seçki dairəsində namizədlərin təşviqat materiallarının məhv edilməsi hallarını qeydə alıblar.

## VI. Seçki komissiyalarının idarəçiliyi

Növbdənkənar prezident seçkisi elan olunduqdan sonra Mərkəzi Seçki Komissiyası bir sıra seçki tədbirlərinin icrasına başlayıb, bir sıra təlimatlar, qərarlar və Təqvim Planı qəbul edib.

### a) Yerli müşahidəçilərin qeydiyyatı

Ötən müddətdə MSK-nın və Dairə Seçki Komissiyalarının fəaliyyətində önə çıxan əsas çatışmazlıq yerli müşahidəçilərin qeydiyyatı ilə bağlı operativ və asan mexanizmlərin yaradılmaması olub. Əvvəlki seçkilərin təcrübəsinə istinad edərək, SMDT dəfələrlə yerli müşahidəçilərdən elektron müraciətlər əsasında qeydiyyat mexanizminin yaradılmasını təklif edib. Ancaq Seçki Məcəlləsi müşahidəçilərin qeydiyyatı ilə bağlı belə mexanizmin tətbiqini qadağan etməsə də, MSK bununla bağlı müvafiq tədbirlər icra eləmir. Nəticədə birdən artıq seçki dairəsi və bir neçə seçki məntəqəsində müşahidəçi olmaq istəyən vətəndaşların MSK və DSK-larda müşahidəçi kimi qeydiyyatı üçün fiziki-texniki imkanları məhdudlaşır, bu prosesi sürətli və asan qaydada həyata keçirə bilmirlər.

Qeyd edək ki, Seçki Məcəlləsinin 40.13-cü maddəsi səsvermə gününədək seçki komissiyasının iclasını müşahidə etmək hüququnu yalnız MSK-da xüsusi icazə almış müşahidəçilərə tanıyır. Bu cür müşahidəçiləri isə MSK püşkatma yolu ilə müəyyən edir. Ancaq əvvəlki seçkilərdə olduğu kimi növbədənkənar prezident seçkisində də xüsusi icazə almış müşahdiəçilərə dair MSK-nın keçirdiyi püşkatma və ya belə hüquqa malik müşahidəçilərin siyahısına dair hər hansı açıqlama verilməyib. Ümumiyyətlə, səsvermə gününədək müşahidəçi olmaq istəyən şəxsləri püşkatma ilə müəyyən etmək qaydası ikili yanaşma üçün hüquqi zəmin yaradır.

Xatırladaq ki, yerli müşahidəçilərdən fərqli olaraq, beynəlxalq müşahdiəçilər həm elektron qaydada qeydiyyatdan keçmək, həm də xüsusi icazə almadan seçki komissiyalarının

iclaslarını müşahdə etmək hüququna malikdir. Belə ikili standart seçkiqabağı dövrdə yerli müşahidəçiliyin səmərəli təşkilinə mane olur.

**b) Seçici siyahılarının dəqiqləşdirilməsi**

MSK-lar seçicilərin tanış olması və əlavə dəqiqləşdirmələr aparılması üçün seçici siyahılarını seçicilərə bu barədə məlumat verməklə səsvermə gününə azı 35 gün qalmış təqdim edir və bunun üçün müvafiq şərait yaradır.[26]
Müşahidəçilər bəzi seçicilərin eyni seçki dairəsi ərazisində bir neçə seçki məntəqəsində qeyd olunmasını, habelə yaşayış yerini illər öncə dəyişsə də, əvvəlki ünvanlarında hələ də seçici kimi siyahıda saxlandığını qeydə alıblar.
Ümumiyyətlə, seçici siyahıları ilə bağlı MSK-nın açıqladığı rəqəmlərə əvvəlki illərdə olduğu kimi inamsızlıq aradan qalxmayıb. Məsələn, MSK-nın yaydığı son məlumata görə ölkədə 6 milyondan artıq səsvermə hüququ olan vətəndaş var. Ancaq 3 il öncə keçirilən növbədənkənar parlament seçkilərində seçiclərin sayı 5 milyon 238 min nəfər olub. Ötən 3 il ərzində seçicilərin sayında 1 milyondan artıq artımın olmasına dair hələ də məntiqli izahat verilməyib.

**c) Şikayətlərin araşdırılması**

MSK-nın açıqladığı rəsmi məlumata əsasən növbədənkənar przeident seçkisində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Mətləb Əzizulla oğlu Mütəllimlinin 19 yanvar 2024-cü il tarixli müraciəti aidiyyəti üzrə araşdırılması üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilib. Bu şikayətin araşdırılması ilə bağlı Baş Prokurorluq hər hansı açıqlama verməyib.

## VII. Nəticələr və Tövsiyələr

SMDT 7 fevral 2024-cü il növbədənkənar prezident seçkisi üzrə seçkiqabağı ictimai-siyasi vəziyyəti və təşviqat mərhələsinin gedişi üzrə müşahidələrini təhlil edərək, aşağıdakı nəticələrə gəlib:

- Növbədənkənar prezident seçkisi ərəfəsində ölkədə siyasi azadlıqların müdafiəsi yönündə böhran dərinləşib, ifadə azadlığı, sərbəst toplaşmaq və birləşmək azadlıqlarına məhdudiyyətlər aradan qalxmayıb, siyasi motivli həbslərin sayı daha da artıb;
- 2020-ci il parlament seçkilərindən ötən müddətdə yerli və beynəlxalq seçki müşahidə təşkilatlarının seçki təcrübəsinin təkmilləşdirlməsi yönündə tövsiyyələri icra olunmayıb;
- Avropa İnsan Hüquqları Məhkəməsinin siyasi motivli həbslər, azad mühakimə hüququ və seçki hüququnun pozulması ilə bağlı qərarları Avropa Şurası Nazirlər Komitəsinin israrlı tələblərinə baxmayaraq, icra olunmayıb;

[26] Azərbaycan Respublikası Seçki Məcəlləsi, Maddə 48.

- Avropa Şurası Venesiya Komissiyası və ATƏT-in Demokratik Təssisatlar və İnsan Hüquqları Bürosu ekspertlərinin verdiyi tövsiyyələr əsasında Seçki Məcəlləsinin, QHT-lər haqqında, Media haqqında və Siyasi partiyalar haqqında qanunların təkmilləşməsi baş verməyib.
- 2020-ci il parlament seçkilərindən ötən müddət ərzində ölkədə siyasi durğunluq daha da dərinləşib, siyasi partiyaların sayı 2 dəfə azalıb, müstəqil vətəndaş cəmiyyəti qurumları və müstəqil medianın fəaliyyətinə qadağalar, habelə jurnalistlər və ictimai fəallara qarşı təqiblər çoxalıb. Nəticədə vətəndaş cəmiyyəti qurumları və siyasi partiyaların 7 fevral növbədənkənar prezident seçkisində fəal iştirakı üçün əlverişli demokratik mühit olmayıb.
- Seçkiqabağı təşviqat dövründə prezidentliyə namizədlərin seçkiqabağı təşviqat kampaniyası qarşıduran siyasi qüvvələrin həqiqi rəqabətinə çevrilməyb, bununla da seçicilərə fərqli siyasi qütblər və baxışlar arasından alternativ seçim imkanları yaranmayıb;
- Prezidentliyə namizədlərin İctimai Televiziya və radioda təşkil olunan müzakirələri ölkədə siyasi plüralizmin təmin edilməsi, o cümlədən seçicilərin istəkləri və ehtiyaclarının müzakirəsi üçün yetərli olmayıb;
- Yerli seçki müşahidəçilərinin qeydiyyatı köhnəlmiş mexanizmlər əsasında aparılaraq, seçki prosesinə ictimai nəzarətin səmərəli təşkilinə rəvac verməyib;

SMDT 7 fevral 2024-cü il prezident seçkisinin növbəti mərhələsi – səsvermə və səslərin sayılması prosesinin hüquqi normalara uyğun şəkildə təşkili ilə bağlı aşağıdakıları tövsiyə edir:

- Seçki komissiyaları seçki günü seçicilər, müşahidəçilər və namizədlərin nümayəndələrinə təzyiqlərin baş verməməsi üçün müvafiq şəraiti təmin etməlidir;
- Seçki günü səsvermə və səslərin sayılması prosesinə icra strukturları və dövlət büdcəsindən maliyyələşən qurumların müdaxilələrinin qarşısının alınması üçün hakimiyyət siyasi iradə nümayiş etdirməli, seçki komissiyaları müstəqilliyi və obyektivliyi hörmət etməlidir;
- Seçkiqabağı təşviqat prosesində baş vermiş hüquqi pozuntuların öyrənilməsi və aradan qaldırılması yönündə səylər nümayiş etdirilməlidir.

**Əlaqə:**

Telefon: (+994) 50 333 46 74
E-poçt: emc.az2001@gmail.com
anarmammadli2@gmail.com
Veb: www.smdtaz.org
Facebook: SMDT_AZelections
X: SMDT_EMDS

*1 saylı Əlavə*

Namizədlərin İctimai TV-də Dəyirmi Masa müzakirələri üzrə monitorinqin nəticələri
*(Müddət: 15-26 yanvar, 2024)*




Namizədlərin iqtidarın siyasəti barədə tənqidi fikirlərinin həcmi
Saniyə
Ümumi efir vaxtına nisbəti (faizlə)
200
180
160
140
120
100
80
60
40
20
0
6,00%
5,00%
4,00%
3,00%
2,00%
1,00%
0,00%
Elşad Musayev
Qüdrət Həsənquliev
Fazil Mustafa
Fuad Əliyev
Razi Nurullayev


Namizədlərin hazırkı prezident İlham Əliyevin lehinə çıxışlarının həcmi (saniyə)
200
180
160
140
120
100
80
60
40
20
0
175
105
42
41
8
7
Fazil Mustafa
Razi Nurullayev
Zahid Oruc
Qüdrət Həsənquliev
Fuad Əliyev
Elşad Musayev




*2 saylı Əlavə*

Namizədlərin sosial mediada təşviqat kampaniyası üzrə monitorinqin nəticələri
*Mənbə: Namizədlərin sosial media hesabları (Müddət: 15-26 yanvar, 2024)*


Namizədlərin seçicilər və digər qruplarla görüşləri
(Mənbə: Facebook sosial media hesabları)
10
10
10
8
6
0
1
2
3
4
5
6
7
8
9
10
Series1
Razı Nurullayev
Fazil Mustafa
Zahid Oruc
Elşad Musayev
Fuad Əliyev
Monitorinqin müddəti: 15-28 yanvar


Namizədlərin seçicilər və digər qruplarla görüşlərinin sosial mediada təqdimat sayı
(Facebook, X və instaqram hesabları)
Fuad Əliyev
6
Elşad Musayev
8
Zahid Oruc
10
Razı Nurullayev
21
Fazil Mustafa
27
0
5
10
15
20
25
30